**Həsən Hüseyn oğlu Rəhimli**

**UOT:167.7:378.4:338.032; JEL:L3;L33;D8;B55.**

# Sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolu

**_Xülasə_**

*Tədqiqatın məqsədi sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolunun tədqiqidir. Bilik iqtisadiyyatının ən vacib ünsürlərindən biri kimi insan kapitalı və institusional iqtisadiyyatın müasir konsepsiyalarından biri olan sosial kapital fenomenlərinin mahiyyəti açıqlanmış və hər iki sosial-iqtisadi göstəricinin inkişafında yeni nəsil sahibkarlıq universitetlərinin rolu təhlili edilmişdir. İnsan kapitalının inkişafı iqtisadi inkişafın ən vacib göstəricisidir, sosial kapital isə insan kapitalının məhsuldarlığına ciddi təsir edən institusional amildir. Həm insan kapitalı, həm də sosial kapitalın inkişafı isə bu və ya digər dərəcədə ölkədə yeni nəsil universitetlərin, xüsusən, sahibkarlıq universitetlərinin formalaşmasından asılıdır. Yeni universitet modeli olan sahibkarlıq universitetlərinin əsas məqsədi təkcə məzunlarını yalnız işaxtaranlara deyil, işyaradanlara çevirə bilməkdir. Tədqiqatın metodologiyası – araşdırılan problemlər üzrə müasir dövrdəki çağırışlardan çıxış etməklə təhlil və sintez, ümumiləşdirmə vasitəsilə sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolu ilə bağlı üslublardan, metodlardan, həmçinin bu problemlərə dair müxtəlif alim və tədqiqatçıların fikir və mülahizələrindən ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti alınmış elmi-praktiki nəticələrdən və hazırlanmış təkliflərdən sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolunun müəyyənləşdirilməsi və bununla bağlı olaraq, fəaliyyət strategiyalarının işlənməsi və kompleks tədbirlərin həyata keçirilməsinə istifadə oluna bilər. Tədqiqatın nəticələri – müasir dövrdə sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolunun obyektiv olaraq müəyyənləşdirilməsi və elmi-iqtisadi arqumentlərlə əsaslandırılmasıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda baxılan problemlərin əhəmiyyətli hissəsi müasir dövrdə aktual və tələb olunan elmi-tədqiqat istiqamətləri hesab olunur. Belə ki, sahibkarlıq universitetlərindəki elmi tədqiqatlar yalnız akademik nəşrlərə yönəlmir, həm də cəmiyyətdəki və iqtisadiyyatdakı yeniliklərin mənbəyinə çevrilərək yeni müəssisələr üçün biznes ideyaların inkişafında başlanğıc rol oynayır. Müasir universitet modeli təkcə işçi qüvvəsini texniki biliklərlə silahlandırmır, o, həmçinin şəxsiyyətin dünyagörüşü, sosial-mədəni səviyyəsi və etik dəyərlərinin inkişafında müstəsna əhəmiyyət kəsb edir. Təhsil qurumları keyfiyyətli işçi qüvvəsinin yetişdirilməsindən əlavə, cəmiyyətdə mədəniyyətin təbliğ, yayma və araşdırma yolu ilə inkişafı məqsədlərini də icra edir. Bu səbəbdən də insan kapitalı və sosial kapitalın inkişafının, dolayısı ilə iqtisadi inkişafın təmin olunması üçün ölkədə sahibkarlıq universitetlərinin formalaşması müstəsna əhəmiyyətə malikdir. Bu qeyd olunan aktual məsələlər üzrə əsaslandırılmış tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözləri:*** *insan kapitalı, insan kapitalı indeksi, sosial kapital indeksi, postindustrial cəmiyyət, bilik iqtisadiyyatı, fundamental və tətbiqi elm, sahibkarlıq universiteti.*

## Giriş

Postindustrial iqtisadiyyatda biliyin iqtisadi resurs kimi rolunun artması və iqtisadi inkişafın təmin edilməsində intellektual kapitalın mühüm əhəmiyyət kəsb etməsi müşahidə edilməkdədir. İntellektual kapital təşkilatlara bazarda dayanıqlı intellektual üstünlüklər verən sistemdir. İqtisadi ədəbiyyatlarda intellektual kapitalın üç tərkib hissəsi göstərilir: insan kapitalı, təşkilati (və ya struktur) kapital və müştəri kapitalı [4, s.42]. İnsan kapitalı sosial-iqtisadi inkişafın ən əsas amili sayılır. Amma iqtisadi inkişaf təkcə biliklərin və digər iqtisadi



*©Həsən Hüseyn oğlu Rəhimli Lənkəran Dövlət Universiteti, dissertant, müəllim. E-mail:rahimli.h@hotmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

resursların kəmiyyət və keyfiyyətindən asılı deyil. Belə ki, müasir bazar iqtisadiyyatında iqtisadi sistemin həll edə bilmədiyi bir çox qeyri-iqtisadi təbiətə malik hadisə və proseslər vardır ki, bunlar da son nəticədə həmin sistemin fəaliyyətinin nəticələrinə ciddi təsir edir. Kollektiv fəaliyyətlər zamanı meydana çıxan problemlər sırasına daxil olan inhisarçılıq, asimmetrik informasiya, gəlir bərabərsizliyi, xarici effektlər, biletsiz adam problemi və s-nin həlli əslində sosial mühitin mədəni, etik və psixoloji inkişaf səviyyəsindən asılıdır. Cəmiyyətdə sosial-etik normaların inkişaf səviyyəsi və insanlar arası inamın dərəcəsini isə sosial kapital anlayışı ilə qiymətləndirmək olar. Sosial kapital müasir institusional iqtisadiyyatın əsas anlayışlarından sayılır. Hər iki göstəricinin inkişafında isə cəmiyyəti biliklərlə təmin edən universitetlərin rolu çox böyükdür. Müasir universitetlərin iqtisadi rollarını iki yerə bölmək olar: klassik rollar və qarışıq (hibrid) rollar. Universitetlərin məşğulluq, toplam xərcləmələr, gəlir və fiziki infrastrukturun həcminə qatqıları onların klassik rolları hesab edilir. Universitetlərin bilik ehtiyatına, insan kapitalına və biliyin transferinə yönəlik qatqıları isə onların qarışıq rolları sayılır.

**İnsan kapitalının inkişafının nəzəri və praktiki aspektləri**

"İnsan kapitalı" nəzəriyyəsinin inkişafında T.Şults və Q.Bekkerin xüsusi xidmətləri olmuşdur [2, 3, 10, 12, 16, 19]. Amerikan iqtisadçılar K.R.Makkonnell və S.L.Bryu insan kapitalını "əmək məhsuldarlığının artırılmasına kömək edən amillərin, o cümlədən təhsil, sağlamlıq, peşə hazırlığına yönəldilən yatırımların toplanması" kimi izah edirlər. İnsan kapitalına investisiya yatırılmasını işçinin ixtisasının və qabiliyyətlərinin artırılması və onun əmək məhsuldarlığının yüksəlməsi ilə əlaqədar istənilən bir fəaliyyət olaraq izah edən amerikan alimlər insan kapitalına yönəldilən investisiyaları 3 istiqamətdə konkretləşdirirlər: 

- təhsil xərcləri – ümumi və xüsusi təhsil xərcləri, formal və qeyri-formal təhsil xərcləri, iş yerlərində hazırlıq, ixtisasartırma ilə bağlı xərclər nəzərdə tutulur;
- səhiyyə xərcləri – xəstəliklərin profilaktikası, tibbi xidmət, dietik qidalanma, mənzil şəraitinin yaxşılaşdırılması ilə bağlı xərclər;
- işçi qüvvəsinin mobiliiyi ilə bağlı xərclər – işçinin bir iş yerindən digərinə, az əmək haqqı olan sahədən yüksək əmək haqqı olan sahəyə yerdəyişməsi ilə bağlı xərclər nəzərdə tutulur.

C.Fişer, R.Dornbuş və R.Şmalenzi də insan kapitalı nəzəriyyəsinə öz töhfələrini vermişdir. Onlara görə isə insan kapitalı "insanda təcəssüm olunan gəlir gətirmək qabiliyyətinin ölçüsüdür". Müəlliflər "Ekonomiks" əsərində göstərirlər ki, insan kapitalına anadangəlmə qabiliyyət və istedad, həmçinin təhsil və qazanılmış ixtisas da daxildir. C.Fişer, R.Dornbuş və R.Şmalenzinin fikrincə, insan kapitalına qoyulan investisiyalar daha yüksək əmək haqqı formasında, yaxud da bu qabiliyyət vasitəsi ilə daha çox gəlir gətirən fəaliyyət nəticəsində tədricən geri qayıdır [3, s.50]. Müasir iqtisadi artım modellərində insan kapitalı əsas faktorlardan biri hesab edilir. Solou modelində əsas iqtisadi artım şərti qismində texniki tərəqqi götürülürdü. Lakin bu amil əsasən ekzogen amil kimi nəzərdən keçirilirdi. Son dövr tədqiqatçılarından Q.Menkyü, D.Romer və R.Lukas bu çatışmazlıqları aradan qaldırmağa çalışaraq insan amilinin mühüm rolunu nəzərə almaqla Solou modelini dəqiqləşdirməyə və ona əlavələr etməyə cəhd etmişdilər. Qeyd olunan müəlliflərin işlədikləri iqtisadi artım modellərində Solou modelinin ona insan amilinin özünün yeni keyfiyyətində - insan kapitalı kimi daxil edilməsi yolu ilə genişləndirilməsi variantı təklif olunmuşdur. İnsan kapitalının iqtisadi artıma təsirini sonrakı illərdə Ç.Cons, R.Barro, D.Yorgensen və s. müəlliflər müxtəlif modellər vasitəsilə tədqiq etmişlər. Tədqiqatlar göstərir ki, ABŞ, Finlandiya, Almaniya, Yaponiya, İsveçrə və s. ölkələrdə milli sərvətin təqribən 80%-ə qədərini, ümumilikdə inkişaf etmiş ölkələrdə milli sərvətin 60-75%-ni insan kapitalı təşkil edir. Bu ölkələrdə ÜDM-in artımının 80-85%-i biliyin inkişafı hesabına formalaşır. Əgər 1800-cü ildə qərb ölkələrində və

Yaponiyada milli sərvətin 20-22%-ni insan kapitalı təşkil edirdisə, 1860-cı ildə bu 21-23%-ə, 1913-cü ildə 31-33%-ə, 1950-ci ildə 47-48%-ə, 1998-ci ildə 67-69%-ə, XXI əsrin başlanğıcında isə 80%-ə çatmışdır. Q.Bekker təhsilə qoyulan investisiyaların iqtisadi effektivliyini gəlirlərin xərclərlə müqayisəsi ilə təhlil etmiş və müəyyənləşdirmişdir ki, təhsilə qoyulan investisiya ildə 12-14%-lik gəlir əldə etməyə imkan verir [3, s.49]. Həmçinin, Dünya Bankı tərəfindən aparılmış son təhlillər göstərir ki, insan kapitalı qlobal zənginliyin 64 faizi olmaqla, böyük hissəsini, yüksək gəlirli ölkələrin sərvətlərinin 70 faizə qədərini, aşağı gəlirli ölkələrin isə sərvətlərinin yalnız 41 faizini təşkil edir. Bu, insan kapitalının dayanıqlı iqtisadi artım və yoxsulluğun azaldılmasında stimul kimi vacibliyini bir daha vurğulayır [24, s.10]. Dünya Bankı tərəfindən ölkələrdə insan kapitalının inkişaf səviyyəsini qiymətləndirmək üçün "İnsan Kapitalı İndeksi"ndən istifadə edilir. "İnsan Kapitalı İndeksi" dünya əhalisinin təhsil, bacarıq və səhiyyə vəziyyətini (sağlamlığını) ölçür. İndeks ölkələri 0-dan 1-ə qədər qiymətləndirir. Maksimum (İKİ=1) nəticə əldə edən ölkənin bütün əhalisi 60 yaşına qədər çatır, 14 yaşına qədər olan uşaqlar isə tam və yüksək səviyyəli pulsuz təhsil əldə edir və heç bir uşaq qida çatışmazlığından əziyyət çəkmirlər. Aşağıdakı qrafikdə 2020-ci il üçün İKİ sıralaması verilmişdir.

**Qrafik 1.**

**"İnsan Kapitalı İndeksi"nə görə bəzi dünya ölkələrinin sıralaması**




Qrafik Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır - https://www.worldbank.org

Dünya Bankının hesabatına görə, 2012-2018-ci illər arasında Azərbaycan İKİ üzrə 0,56-dan 0,60-a yüksələ bilib. Dünya Bankının hesabatına görə, Azərbaycanda bu gün doğulan uşaqlar tam təhsil və tam sağlamlıqdan faydalanacaqları halda 60 faiz məhsuldar olacaq və hər 100 uşaqdan 98-i 5 yaşa qədər yaşaya biləcəkdir. Həmçinin, Azərbaycanda şagirdlərin öyrənmə keyfiyyətinə görə qiymətləndirmə orta səviyyədən bir qədər aşağıdır. Belə ki, İKİ əsasən, şagirdlərin öyrənmə keyfiyyəti 472 balla qiymətləndirilib.

**Sosial kapitalın inkişafının nəzəri və praktiki aspektləri**

İnsan kapitalının məhsuldarlığını təsir edən amillərdən biri də sosial kapitaldır. Təhsilin insan kapitalının formalaşmasında əhəmiyyəti yüksək olsa da ölkədəki institusional mühit insan kapitalından səmərəli istifadə imkanlarını yüksəldir. Sosial kapital institusional mühitin ən vacib qeyri-formal institutudur. Tədqiqatlar sübut edir ki, qeyri-formal institutların əhatə dairəsinin geniş olduğu cəmiyyətlərdə texnoloji dəyişikliklərin yayılması üçün sağlam mühit olur. Etibar, inam sosial kapitalın ən vacib elementidir. Sosial kapital çatışmazlığı olan ölkələrin inkişaf səviyyəsindən əziyyət çəkdikləri müşahidə edilmişdir. Qeyri-etik davranış kimi izah edilə bilən korrupsiya, inamsızlıq, opportunist davranış, deviant davranış, əxlaq

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

normalarının itirilməsi kimi davranışlar insan kapitalına mənfi təsir göstərir və dolayısı ilə iqtisadi inkişafınləngiməsinə səbəb olur. İnkişaf etmiş ölkələr insan kapitalından səmərəli və effektiv istifadə üçün sosial kapitala ehtiyac olduğunu bildikləri üçün sosial kapitala xüsusi əhəmiyyət verirlər. 1980-ci illərdən başlayaraq bu günə kimi sosial kapital mövzusu daha geniş araşdırılmağa başlandı. Həmin dövrdə P.Bourdieunun (1983, 1986), J.Colemanın (1988, 1990) bu mövzuda apardıqları tədqiqatlar indi ən çox istinad edilənlər arasındadır. P.Bourdieu və J.Colemandan sonra 1993-cü ildə R.Putnamın İtaliyada regional inkişaf məsələləri ilə bağlı tədqiqatı sosial kapital məsələsi üzərində qurulmuş və geniş müzakirələrə səbəb olmuşdur [14, s.3]. Pierre Bourdieuya görə sosial kapital 3 əsas kapital növündən (iqtisadi, mədəni və sosial kapital) biridir. İqtisadi kapital birbaşa pula çevrilə bilir və mülkiyyət hüququ kimi institusionallaşır. Mədəni kapital müəyyən şərtlər daxilində iqtisadi kapitala çevrilir və təhsil üzrə institusionallaşır. Sosial kapital isə əlaqələrdən formalaşır və müəyyən şərtlər daxilində iqtisadi kapitala konvertasiya olunaraq, institusionallaşır [5, s.78]. Frensis Fukuyamaya görə isə sosial kapital fərdlər arasında ələqələri dəstəkləyən qeyri-formal normalardır. Tədqiqatçılardan Lazerson göstərirdi ki, güclü sosial kapitala malik cəmiyyətlərdə şəxslər, hətta şirkətlər arasında maliyyə məsələləri daha rahat həll olunur. Şirkətlər arasında tranzaksiya xərclərinin azalması nəticəsində iqtisadi səmərəliliyin artması sosial kapitalın müsbət xüsusiyyətlərindən biri hesab olunur. Həmçinin, Arrou (1974) qeyd edirdi ki, iqtisadi agentlər arasında minimal inam səviyyəsi olmasa, heç bir iqtisadi tranzaksiya baş verməz. İnam tranzaksiya xərclərini azaldaraq iqtisadi əməliyyatları asanlaşdırır [11].

Əksər iqtisadi ədəbiyyatlarda qeyri-formal institutlar sosial kapital kimi də xarakterizə olunur. Qeyd olunan fikirləri yekunlaşdırsaq deyə bilərik ki, sosial kapital qrup üzvləri üçün pozitiv xarici effektlər yaradır və bu pozitiv xarici effektlər inam, ümumi normalar və dəyərlər hesabına formalaşır. Sosial kapitalın iki əsas növü fərqləndirilir: bond və körpü**.** I tip sosial kapital (bond) yalnız yaxın çevrəni əhatə edir və qeyri-inkluziv xarakter daşıyır. Bu tip sosial kapital qohumluq əlaqələrinə və ya digər növ yaxın sosial çevrəyə malik insanları bir-birinə bağlayan elementlərdən ibarətdir. Bu tip qrupların üzvləri sosial cəhətdən adətən eyni və ya yaxın qrupa daxil olurlar. Birinci tip sosial kapitala adətən qrupun mənfəətini cəmiyyətin zərəri hesabına artıranlar aid edilir..

II tip sosial kapital (bridge) isə daha inkluzivdir, cəmiyyətin müxtəlif üzvlərini əhatə edir. Bu tip sosial kapital insanlar arasında körpü yaradan elementlərdən ibarətdir. Körpü (bridge) tipli sosial kapitalda həmin cəmiyyət üzvləri bir-biri ilə qohumluq yaxud yaxın çevrə əlaqələrinə malik olmaya da bilərlər. Adətən körpü tipli sosial kapitalın inkişaf etdiyi cəmiyyətlərdə sosial çevrələri müxtəlif olan insanlar arasında da inam, etibar olur və bu insanları adətən müəyyən ortaq maraqlar birləşdirir. Bu tip sosial kapital ümumi rifahı artırır və cəmiyyət üzvləri arasında əməkdaşlığa təşviq edir. Məhz ikinci tip sosial kapital iqtisadi artıma müsbət təsir edir. Putnam qeyd edirdi ki, Amerikada körpü tipli sosial kapitalın əsas təsirləri nəticəsində işsizliyin azalır, cinayət işlərinin sayının aşağı düşür, hökumətin effektivliyi yüksəlir. Beləliklə, Putnam sosial kapital və iqtisadi artım arasında pozitiv bir əlaqə olduğunu təsdiq edirdi. Əksinə olaraq isə aşağı səviyyəli sosial kapitallı ölkələrdə hüquqi qaydanın dəstəklənməsi və mülkiyyət hüquqlarının müdafiəsi əhəmiyyətli ölçüdə əlavə transaksiya xərcləri tələb edir. Bu isə özünü xüsusi mühafizənin yayılmasında, hasarların yüksəkliyində və digər məsələlər üzrə izafi xərclərdə əyani şəkildə göstərir. Putnam sosial kapital və iqtisadi artım arasında əlaqəni 4 əsas arqumentlə izah edirdi: Güclü sosial kapital qarşılıqlı fayda məqsədilə koordinasiya və əməkdaşlığı artırır; kollektiv arasında həmrəylik yaradır; ictimai maraqları təmin edir (eqoizmi azaldır); şəxsi mənafe üçün stimulları azaldır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Beləliklə, sosial kapital insanlar və insanlar arası və insanlarla institutlar arasında güvəni (institusional inam) artırdığı üçün insan kapitalının səmərəliliyinə müsbət təsir göstərir. Aparılan tədqiqatlara görə inam göstəricisi ilə adambaşına düşən ÜDM arasında pozitiv əlaqə mövcud olsa da, bu əlaqə kifayət qədər dağınıqdır. Aşağıdakı qrafikdə 2020-ci il üçün SKİ sıralaması verilmişdir.

**Qrafik 2.**

**“Sosial Kapital İndeksi”nə görə bəzi dünya ölkələrinin sıralaması**




Qrafik Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır - https://www.worldbank.org



Azərbaycanın SKİ üzrə mövqeyinin kifayət qədər yüksək olmasının əsas səbəbi kimi ölkəmizdə qeyri-formal dəyərlərin (fədakarlıq, tolerantlıq, qarşılıqlı etibar, inam, əməkdaşlıq, yardımlaşma və s.) yüksək dərəcədə inkişafını göstərə bilərik. Bu aspektdən baxdıqda Azərbaycan üçün Vətən müharibəsindəki qələbənin post-konflikt dövrdə sosial kapitalın inkişafında yarada biləcəyi əsas təsirləri belə sadalaya bilərik:

- ✓ insanlar arası qarşılıqlı inamın və altruist davranışlara meyillilik səviyyəsinin artması nəticəsində transaksiya xərclərinin azalması;
- ✓ Hakimiyyət-xalq arasındakı inamın artması hesabına institusional inam səviyyəsinin yüksəlməsi və dolayısı ilə iqtisadi siyasətin effektivliyinin artması.

Beləliklə, sosial kapital həm insanlar arası, həm də insanlarla institutlar arası inamı artırdığı üçün həm insan kapitalının inkişafı üçün münbit şərait yaradır, həm də sosial kapitalın inkişaf etdiyi ölkələrdə iqtisadi inkişaf səviyyəsi daha yüksək olur.

**Sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolunun təhlili**

İnsan kapitalına zaman aspektindən baxsaq onun inkişafında aşağıdakı mərhələləri fərqləndirə bilərik:

- ✓ erkən uşaqlıq dövründə ailədə öyrətmə;
- ✓ erkən uşaqlığı daxil etməklə, formal təhsili və peşəkar hazırlıq, məcburi məktəb təhsili, peşəkar yaxud ümumi təhsilin əlavə məcburi səviyyəsi, ali təhsil, əmək bazarında peşəkar təhsil, yaşlıların təhsil alması və s;
- ✓ iş yerində peşəkar hazırlama, həmçinin tədqiqat və innovasiya, yaxud, müxtəlif peşəkar birliklərdə iştirak etmək kimi xüsusi fəaliyyət vasitəsilə işdə təhsilinin artırılması;
- ✓ iş yerində, gündəlik həyatda və mülki fəaliyyətdə qeyri-formal olaraq bacarığının təkmilləşdirilməsi [2, s.8].

Göründüyü kimi insan kapitalının formalaşmasının həm ikinci (ali təhsil), həm də üçüncü mərhələsində (tədqiqat və inkişaf) universitetlərin rolu çox böyükdür. Müasir

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

universitet modelində ali məktəblər təkcə elm və tədqiqatla məşğul olmurlar, onlar cəmiyyətin ən aparıcı institutu kimi sosial və iqtisadi problemlərin həllində müstəsna rol oynayır. İnformasiya cəmiyyətində təhsil sistemi elə bir fəaliyyət sferasıdır ki, orada maliyyə kapitalı insan kapitalına çevrilir. Təhsilə yatırılan investisiyalar insanın intellektinin, mədəni səviyyəsinin yüksəlməsinə səbəb olur ki, bu da həm insanın özü, həm də cəmiyyət üçün mənfəət yaradır. İqtisadi inkişafın müasir mərhələsində təhsilin maliyyələşdirilməsi ən səmərəli, faydalı investisiya hesab edilir. Q.Bekkerin təsnifatına görə də insan kapitalına yatırımlara təhsil, sağlamlığın qorunmasına, iş axtarışı, uşaqların tərbiyəsi və gəlir axtarışı üzrə xərclər aiddir. İnsan inkişafının ölçülməsində istifadə edilən "İnsanın İnkişaf İndeksi"nin və "İnsan Kapitalı İndeksi"nin hesablanmasında da məhz təhsil səviyyəsi göstəricisi önəmli yer tutur. Dünya Bankının və YUNESKO-nun ekspertləri qeyd edir ki, hər bir ölkədə dövrün tələblərinə cavab verən güclü kadr ehtiyatları yaradılmasında orta təhsildən sonrakı təhsillərin, xüsusilə ali təhsilin rolu çox böyükdür.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında başlıca vəzifələrdən biri kimi müasir təhsil sisteminin formalaşdırılması müəyyən edilmişdir. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə "Strateji Yol Xəritəsi"ndə də qeyd edilir ki, insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi və əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması vacibdir. Bu məqsədlə, ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi, elmi tədqiqat fəaliyyətinin inkişafı və biliklərə əsaslanan cəmiyyət quruculuğunun dəstəklənməsi, innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi və s. kimi vəzifələr qarşıya qoyulmuşdur. Texniki təhsilin xüsusilə texnoloji inkişafda, humanitar elmlər üzrə təhsilin isə bir ölkənin mədəni və sosial yöndən inkişafında önəmli rol oynadığı demək olar. Universitetlər isə humanitar və ictimai elmlər üzrə tədris və tədqiqat fəaliyyətlərinin önündə gedir. Fukuyamaya görə ölkədə sosial kapitalın inkişafında dövlətin rolu çox önəmlidir və bu rol icra etmək üçün dövlətin əlindəki əsas aləti isə təhsildir. Onun fikrincə, təhsilin inkişafı həm insan kapitalının, həm sosial kapitalın və ümumilikdə, bütün etik dəyərlərin inkişafının açarıdır. Təhlilləri yekunlaşdırsaq yeni nəsil universitetlərin insan kapitalı və sosial kapitalın inkişafındakı əsas rolunu aşağıdakı kimi ümumiləşdirə bilərik.

**Cədvəl 1.**

**Müasir universitetlərin insan kapitalı və sosial kapitalın inkişafına təsiri**

| İnsan kapitalı aspektindən | Sosial kapital aspektindən |
|---|---|
| Ali təhsil nəticəsində işçi qüvvəsinin bilik və bacarıqlarının (keyfiyyətinin) artırılması | Ali təhsil nəticəsində insanların dünyagörüşü, mədəni səviyyəsi və etik dəyərlərinin inkişafı |
| Fundamental elmi tədqiqatlarla istehsal və idarəetmə sahəsində innovativ inkişafa dəstək | Fundamental elmi tədqiqatlarla humanitar və ictimai elmlərin inkişafına dəstək |
| Tətbiqi elmi tədqiqatların kommersiyalaşması sayəsində həm biznesin (istehsal, kommersiya, maliyyə və məsləhət sahələri üzrə), həm də elm və təhsilin inkişafı (elm və təhsilin yeni maliyyələşmə üsulunun tətbiqi) | Elmi tədqiqatlar aparılması üçün digər elmi təşkilatlar və iş dünyası ilə qarşılıqlı inam və yardımlaşma əsasında əməkdaşlığa dəstək nəticəsində II tip (körpü) sosial kapitalın inkişafı |



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

İnsan kapitalının inkişafı iqtisadi inkişafın ən vacib atributudur. Sosial kapital isə insan kapitalının məhsuldarlığına töhfə verməklə fərdin sosial, təhsil, səhiyyə, ailə və iş həyatına və dövlət idarəetməsindəki fəaliyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Sahibkarlıq universitetlərinin insan kapitalı və sosial kapitalın inkişafında rolunun artırılması üçün bir qrup amillər, meyarlar və təkliflər ciddi şəkildə nəzərə alınmalı və qiymətləndirilməlidir:

- Həm insan kapitalı, həm də sosial kapitalın inkişafı isə bu və ya digər dərəcədə ölkədə yeni nəsil universitetlərin, xüsusən sahibkarlıq universitetlərinin formalaşmasından asılıdır;
- Müasir universitetlərin formalaşması ölkədə iqtisadi artım və iqtisadi inkişafı təmin edən əsas şərtlərdən biri hesab edilir;
- Bunun səbəbi isə universitetlərin müasir dövrdə dəyişən məzmunu və yeni funksiyaları ilə bağlıdır;
- Yeni universitet modeli olan sahibkarlıq universitetlərinin əsas məqsədi təkcə məzunlarını yalnız iş axtaranlara deyil, iş yaradanlara çevirə bilməkdir. Sahibkarlıq universitetlərindəki elmi tədqiqatlar yalnız akademik nəşrlərə yönəlmir, həm də cəmiyyətdəki və iqtisadiyyatdakı yeniliklərin mənbəyinə çevrilərək yeni müəssisələr üçün biznes ideyaların inkişafında başlanğıc rol oynayır;
- Müasir universitet modeli təkcə işçi qüvvəsini texniki biliklərlə silahlandırmır, o, həmçinin şəxsiyyətin dünyagörüşü, sosial-mədəni səviyyəsi və etik dəyərlərinin inkişafında müstəsna əhəmiyyət kəsb edir;
- Təhsil qurumları keyfiyyətli işçi qüvvəsinin yetişdirilməsindən əlavə, cəmiyyətdə mədəniyyətin təbliğ, yayma və araşdırma yolu ilə inkişafı məqsədlərini də icra edir. Bu səbəbdən də insan kapitalı və sosial kapitalın inkişafının, dolayısı ilə iqtisadi inkişafın təmin olunması üçün ölkədə sahibkarlıq universitetlərinin yaradılması, onların inkişafı üçün institusional mühitin formalaşdırılması, bu sahədəki mövcud problemlərin həlli üçün struktur islahatların aparılması və yeni nəsil universitetlərə dövlət dəstək mexanizmlərinin hazırlanması və icrasını zəruri hesab edirik.



## Ədəbiyyat

1. A.Auzan və b. İnstitusional iqtisadiyyat: Yeni institusional iqtisadi nəzəriyyə (ruscadan tərcümə). Bakı, 2013.
2. A.Hüseynova. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: "Çap ART" Nəşriyyatı, 2017, 28 s.
3. A.Muradov. Bilik iqtisadiyyati quruculuğunda insan kapitalinin roluna dair nəzəri mülahizələr. Peşə təhsili və insan kapitalı. Cild 1, №4, 2018 s.47-52.
4. B.Clark. Excludes Changes in Educational Areas: Development of Visual Studies and Concepts. New York: Open University Press, 2004. 452 p.
5. Bersu Bahtiyar. Sosyal sermaye faktörünün ekonomik büyüme üzerindeki etkisinin karşilaştirmali analizi. Zonguldak, 2017.
6. Bilge Bingöl. Üniversite Özerkliğinin Değişen Tanımı ve Üniversitelerin Yeniden Yapılandırılması. Bingöl / Hacettepe Hukuk Fak. Derg., 2(2) 2012, 39–75.
7. Burcu Özcan. Sosyal sermaye ve ekonomik kalkinma. İstanbul, 2011.
8. Campbell McConnell, Stanley Brue, Sean Flynn. Economics: principles, problems and policies. McGraw-Hill Series in Economics. 2009
9. Catherine Laura Mamuli. Human Capital Development and Higher Education. European Business & Management. 2020; 6(4): 61-66,
10. Derya Kazancigil. Beşeri sermaye ekonomik büyüme ilişkisi: Türkiye örneği. Balıkesir, 2019.
11. E.Rüstəmov. İnstitutlar və iqtisadi artım: qlobal faktlar. Mərkəzi bank işçi məqalələri silsiləsi.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

12. Elif Daşcı. Beşeri sermaye bileşenlerinden eğitimin ekonomik büyümeye etkisi: panel var analizi. Gazi Universitesi, 2018.
13. Ferhat Ağçay. Üçüncü nesil üniversiteler: kolaylaştirici ve engelleyici faktörler ile başari unsurlarinin belirlenmesine yönelik üniversite paydaşlari üzerinde bir araştirma. İzmir – 2019.
14. G.Tahirova. Sosial kapitalın iqtisadiyyata təsiri. Mərkəzi bank işçi məqalələri silsiləsi. № 05/2014.
15. Güler Gelgeç, Selim Adem Hatırlı. Bilgi ekonomisi ve büyüme arasindaki ilişki: Türkiye örneği. Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi Y.2018, C.23, S.1, s.97-122.
16. İqtisadi nəzəriyyə: makroiqtisadiyyat 1,2 (ruscadan tərcümə). / Q.P.Juravlyovanın redaktorluğu ilə. Bakı-2009.
17. İsmail Seki. Bilgi yönetişimi bağlamında üniversitelerin ekonomideki rolü. İzmir – 2011.
18. K.İmanov. Əqli mülkiyyət və insan kapitalı. Bakı, 2016.
19. M.A.Mədətov. İnsan kapitalinin ölçülməsinə dair yanaşmalarin analizi. İnformasiya cəmiyyəti problemləri, 2018, №2, 41–51.
20. Munire Çiftçi. Girişimci Üniversite ve Üçüncü Kuşak Üniversiteler. Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi. 2010.
21. Mustafa Ercan Kılıç. Sosyal sermayenin inovasyon üzerindeki etkisinin Türkiye açisindan incelenmesi: mekansal ekonometrik analiz. Malatya, 2017.
22. Olugbenga S. Adedeji, Omolara A. Campbell. The Role of Higher Education in Human Capital Development in Nigeria. February 8, 2013.
23. Osim Rosemary Onya, Uchendu Chika, William E. Ekpiken. The role of universities in human capital development: implications for national transformation. Journal of Education and Practice, Vol.4, No.23, 2013.
24. Sağ qal, öyrən, inkişaf et. Azərbaycanın inkişafının sürətləndirilməsi məqsədilə insan kapitalına strateji investisiyaların yatırılması. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı / Dünya Bankı. 2020.
25. Shahid Yusuf, Kaoru Nabeshima. Üniversiteler ekonomik büyümeye nasıl katkıda bulunur. Uluslararası İmar ve Kalkınma Bankası / Dünya Bankası. 2011.
26. Süreyya Sakınç, Sibel Aybarç Bursalıoğlu. Yükseköğretimde Küresel Bir Değişim: Girişimci Üniversite Modeli. Cilt/Volume 2, Sayı/Number 2, Ağustos/August 2012; Sayfa/Pages 92-99.
27. Tuba Akar. Sosyal sermaye, inovasyon ve büyüme: gelişmiş ve gelişmekte olan ülkeler üzerine ampirik bir uygulama. Konya, 2017.
28. Yunus Emre Özer. Girişimci üniversite modeli ve Türkiye. Uludağ üniversitesi İktisadi ve idari bilimler fakültesi dergisi. Cilt/vol. Xxx, sayı/no. 2, 2011, pp. 85-100.



***Гасан Гусейн Рахимли***
***диссертант Ленкоранского Государственного Университета, преподаватель***
***E-mail: rahimli.h@hotmail.com***

***Резюме***

***Роль университетов предпринимательства в развитии человеческого и социального капитала***

*Цель исследования состоит из формирования теоретико-методологических подходы к организации системы экономической безопасности химических предприятий. С этой целью раскрыта сущность феноменов человеческого капитала и социального капитала как одного из важнейших элементов экономики знаний и одной из современных концепций институциональной экономики, а также анализируется роль университетов предпринимательства нового поколения в развитии обоих социально-экономических показателей. Было отмечено, что развитие человеческого капитала - важнейший показатель экономического развития. Социальный капитал - институциональный фактор, серьезно*

*влияющий на производительность человеческого капитала. Развитие как человеческого, так и социального капитала в некоторой степени зависит от формирования в стране университетов нового поколения, особенно университетов предпринимательства. Цель университетов предпринимательства, которые представляют собой новую университетскую модель, - превратить своих выпускников не только в соискателей, но и в создателей рабочих мест. Методология исследования – в статье использованы методы анализа и синтеза, связанные с усилением роли университетов предпринимательства в развитии человеческого и социального капитала. А так же, применены подходы и обобщения трудов ряда ученых и исследователей по усилению роли университетов в развитии предпринимательства и в социальном аспекте. Практическая значимость исследования – полученные результаты и научно-экономические подходы могут быть использованы при разработке стратегий и комплексных мероприятий по усилению роли университетов предпринимательства в развитии человеческого и социального капитала. Результаты исследования – разработаны обоснованные подходы по усилению роли университетов предпринимательства в развитии человеческого и социального капитала. Оригинальность и научная новизна исследования основной частью рассматриваемых проблем считаются новые научно-исследовательские направления в экономической науке. Так, исследования в университетах предпринимательства не только сосредоточены на академических публикациях, но и играют новаторскую роль в разработке бизнес-идей для новых предприятий, становясь источником инноваций в обществе и экономике. Современная университетская модель не только предоставляет персоналу технические знания, но также играет исключительную роль в развитии мировоззрения, социокультурного уровня и этических ценностей человека. Помимо подготовки качественных кадров, образовательные учреждения также преследуют цели развития, распространения и исследования культуры в обществе. По этой причине создание в стране предпринимательских университетов имеет исключительное значение для развития человеческого и социального капитала, а значит, и для экономического развития.*



***Ключевые слова:*** *человеческий капитал, индекс человеческого капитала, индекс социального капитала, постиндустриальное общество, экономика знаний, фундаментальная и прикладная наука, университет предпринимательства.*

***Hasan Huseyn Rahimli***
***doctoral student of the Lankaran***
***State University, lecturer***
***E-mail: rahimli.h@hotmail.com***

***Summary***

***The role of entrepreneurship universities in the development of human capital and social capital***

*Purpose of the research – is to form theoretical and methodological approaches to the organization of the economic safety system of chemical enterprises. To this end, the essence of the phenomena of human capital and social capital as one of the most important elements of the knowledge economy and one of the modern concepts of the institutional economy has been revealed, and the role of new generation entrepreneurship universities in the development of both socio-economic indicators is also analyzed. It was noted that human capital development is the most important indicator of economic development. Social capital is an institutional factor that seriously affects the productivity of human capital. The development of both human and social capital depends to some extent on the formation of a new generation of universities in the country, especially entrepreneurship universities. The main goal of entrepreneurship universities, which represent a new university model, is to turn their graduates not only into applicants, but also into job creators. Research methodology - the article uses methods of analysis and synthesis related to strengthening the role of entrepreneurship universities in the development of human and social capital. And also, approaches and generalizations of the works of a number of scientists and researchers were applied to strengthen the role of universities in the development of entrepreneurship and in the social aspect. The practical importance of a research – the results obtained and the scientific and economic approaches*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*can be used in the development of strategies and integrated measures to strengthen the role of entrepreneurship universities in the development of human and social capital. The results of the study - well-founded approaches have been developed to strengthen the role of entrepreneurship universities in the development of human and social capital. Originality and scientific novelty of the research - new research areas in economic science are considered to be the main part of the problems under consideration. So, research at entrepreneurship universities not only focuses on academic publications, but also plays an innovative role in the development of business ideas for new enterprises, becoming a source of innovation in society and the economy. The modern university model not only provides staff with technical knowledge, but also plays an exceptional role in the development of a person's worldview, socio-cultural level and ethical values. In addition to quality training, educational institutions also pursue the goals of developing, disseminating and researching culture in society. For this reason, the creation of entrepreneurial universities in the country is of crucial importance for the development of human and social capital, and therefore for economic development.*

***Key words:*** *human capital, human capital index, social capital index, post-industrial society, knowledge economy, fundamental and applied science, university of entrepreneurship.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 06.07.2021.***
***Çapa qəbul olunub: 12.07.2021.***



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*